# Vergi uçotundan yayınma hallarının qarşısı alınıb

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2017-ci ilin aprel ayının 1-dən etibarən sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı elektron qaimə-fakturalar tətbiq edilir. Ötən müddət ərzində “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikası Qanunun qüvvəyə minməsi, elektron qaimə-fakturaların tətbiqi, əməliyyatların şəffaflaşdırılması və vergi uçotunun bərpasını nəzərdə tutan dəyişikliklərlə bağlı vergi ödəyiciləri arasında geniş məlumatlandırma işləri aparıb və görüşlər keçirilib. Bunlarla yanaşı, vergi qanunvericiliyinin tələblərinə əməl edilməsi vəziyyətinin nəzarətdə saxlanılması üçün Vergilər Nazirliyində yaradılmış müvafiq məlumat bazalarında sözügedən dəyişikliklərlə əlaqədar məlumatlar mütəmadi olaraq araşdırılır, riskli vergi ödəyiciləri müəyyən edilir və həmin vergi ödəyiciləri üzrə nəzarət tədbirləri həyata keçirilir.

Vergilər Nazirliyi tərəfindən iyul ayı ərzində həyata keçirilən araşdırmalar zamanı vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda kifayət qədər risklər yaranması halları aşkar edilib. Belə ki, bəzi vergi ödəyiciləri tərəfindən təqdim edilmiş mallara (işlərə, xidmətlərə) görə elektron qaimə-fakturaların verilmədiyi, malların (işlərin, xidmətlərin) satılmasına baxmayaraq, həmin əməliyyatlara görə vergilərin dövlət büdcəsinə ödənilmədiyi, satışdan əldə edilmiş pul vəsaitlərinin uçota alınmadığı, “Nağdsız hesablaşmalar haqqında” Qanunun tələblərinə əməl edilmədiyi və bir sıra pozuntulara yol verildiyi müəyyən edilib. Bəzi hallarda isə vergi ödəyiciləri heç bir təsərrüfat subyektləri (anbarı, mağazası və s.) olmadığı halda, aldıqları (idxal etdikləri) malların satışını vergiyə cəlb etməyərək, həmin malları “mal qalığı” kimi göstərirlər.

Qeyd olunanlarla əlaqədar, Vergilər Nazirliyi yanında Lokal Vergilər Departamenti tərəfindən Bakı şəhərində fəaliyyət göstərən bir neçə riskli vergi ödəyicilərində malların elektron qaimə-faktura tətbiq etməklə həyata keçirilməsinə, malların və pul vəsaitinin uçotdan gizlədilməsi və ya uçota alınmaması hallarına, eləcə də nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı qanunla müəyyən olunmuş tələblərə əməl olunmasına nəzarət edilməsi məqsədi ilə operativ vergi nəzarəti həyata keçirilib. Bu tədbirlərin əsas məqsədi, vergi ödəyicilərində şəffaf vergi uçotunun qurulması və vergi öhdəliklərinin yerinə yetirilməsinə nail olmaqdır.

Cari ilin iyul ayı ərzində həyata keçirilmiş tədbirlər nəticəsində ümumilikdə 10 milyon 529 min manat dəyərində mal-materialın əskik gəldiyi (mövcud olmadığı), yəni vergi ödəyiciləri tərəfindən satılmasına baxmayaraq, satışdan əldə olunan gəlirin müvafiq vergi bəyannamələrində əks edilmədiyi və vergidən yayındırıldığı, 885,2 min manat məbləğində mal-materialın isə uçotsuz, yəni sənədsiz olduğu müəyyən edilib.

Həyata keçirilmiş yoxlamalar nəticəsində dövlət büdcəsindən yayındırılmış 1 milyon 916 min manat məbləğində ƏDV-nin vergi bəyannamələrində bərpa edilməsi üçün müvafiq tədbirlər görülüb.

Vergilər Nazirliyi xəbərdarlıq edir ki, maliyyə sanksiyalarına və cərimələrə məruz qalmamaq üçün, vergi ödəyiciləri şəffaf vergi uçotunun qurulması, malların (işlərin, xidmətlərin) alışı və satışının qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməsi və “Nağdsız hesablaşmalar haqqında” Qanunun tələblərinə ciddi əməl edilməsini təmin etməlidirlər.

**Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzi**

# Azərbaycan manatının 25 yaşı tamam oldu

Milli pul vahidi müstəqil dövlətin maliyyə-bank sisteminin əsas amilidir.

Azərbaycanın milli valyutası olan manat 1992-ci ilin avqustundan dövriyyəyə buraxılıb. İlk olaraq dövriyyədə 1, 10 və 250 manatlıq kağız əskinaslar 5, 10, 20 və 50 qəpik dəyərində metal pullar olub. 1992-ci ilin dekabrında 5 manatlıq, 1993-cü ilin martında 50, 100, 500 və 1000 manatlıq, 1994-cü ildə 10000, 1996-cı ildə isə 50000 manatlıq kağız əskinaslar dövriyyəyə buraxılıb.

1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək manat Azərbaycan ərazisində 1 manat 10 rubl nisbətində rublla paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunub.



Ulu öndər Heydər Əliyevin 1993-cü il 11 dekabr tarixli «Azərbaycan Respublikasında milli valyutamızın respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında» fərmanının tələblərinə uyğun olaraq 1994-cü ilin yanvarın 1-dən rubl ölkəmizin ərazisində dövriyyədən çıxarıldı və manat yeganə ödəniş vasitəsi kimi təsbit olundu. Beləliklə, Azərbaycan rubl zonasından çıxdı.

Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci ildə imzaladığı «Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin dəyişdirilməsi (denominasiya) haqqında» fərmanına uyğun olaraq 2006-cı ilin 1 yanvarından yeni manata keçildi.

Yeni 1 manat- AZN 5000 köhnə manata—AZM-ə bərabər tutuldu. Dövriyyəyə 1, 5, 10, 20, 50, 100 ekvivalentləri olan kağız əskinaslar, 1,3, 5, 10, 20, 50 qəpik dəyərində metal pul nişanları buraxıldı.

**✍ Səhrab UMUYEV.**
**«Qəbələ»**

# Azərbaycandan 600 milyon kilovatt-saatadək elektrik enerjisi ixrac olunub

***İxrac edilən neft məhsullarının həcmi 476 min ton, təbii qazın həcmi isə 3,8 milyard kubmetrdir.***

Bu ilin ilk yeddi ayında Azərbaycandan 597 milyon 698 min kilovat/saat elektrik enerjisi ixrac olunub.

Həmin dövrdə Azərbaycandan 476 min 346 ton (2710 mal kodu üzrə) neft məhsulları da ixrac edilib. İlin ilk 7 ayın da ixrac edilən neft məhsullarının dəyəri 178 milyon 428 min ABŞ dolları olub.

Cari ilin ilk yeddi ayında Azərbaycandan həmçinin 3 milyard 831 milyon 705 min kubmetr təbii qaz ixrac olunub. Bu dövrdə ixrac olunan təbii qazın dəyəri isə 669 milyon 181 min ABŞ dolları təşkil edib.

**AZƏRTAC**

# 6 subartezian quyusu qazılıb

Əhalinin içməli su və əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə mühüm işlər görülür. Qəbələ Su-Kanal İdarəsi tərəfindən “Qaraçay” və “Duruca” su mənbələrində yerləşən anbarların lil və qumdan təmizlənməsi işləri başa çatdırılıb. Şəhərin Nizami Gəncəvi, Heydər Əliyev, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, İsmayıl bəy Qutqaşınlı küçələrindəki su və kanalizasiya xətlərində təmir-bərpa işləri aparılıb, axıntıların qarşısı alınıb.

Hazırda Qəbələ şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması işləri davam etdirilir, küçələrdə borular çəkilir, sayğaclar quraşdırılır, çirkab suları üçün nəzərdə tutulan təmizləyici qurğu inşa edilir.

“Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Qəbələ şəhərində, Vəndam qəsəbəsində, Zirik, Mıxlıqovaq, Zarağan, Məlikli kəndlərində 6 ədəd subartezian quyusu qazılıb. Hazırda Mıxlıqovaq kəndində daha bir ədəd subartezian quyusunun qazılması işləri davam etdirilir.

**«Qəbələ»**

# Tədbir keçirilmişdir

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində «İntihar hallarının baş vermə səbəbləri və onun qarşısının alınması» mövzusunda maarifləndirici tədbir keçirilmişdir. Tədbirə ictimaiyyət nümayəndələri dəvət olunmuşdu. Təlim xarakterli tədbiri Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Günel Ağayeva açmış, intihar halları ilə bağlı statistik göstəriciləri xatırlatmış, bu halların qarşısının alınması üçün maarifləndirici tədbirlərin keçirilməsinin vacib olduğunu bildirmişdir. İki hissədən ibarət keçirilən tədbirin birinci hissəsində insan hüquqları, ikinci hissəsində intiharın yaranma səbəbləri, intihara meylli insan qrupları barədə dialoq şəklində geniş söhbət getmişdir.

Mərkəzin psixoloqu Rüfət Əhmədov psixoloji durumu zəif olan insanlara müntəzəm olaraq psixoloji yardımın göstərilməsini vacib saymış, mərkəzin bu sahədəki fəaliyyətini dəyərləndirmişdir.

Sonda bildirilmişdir ki, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin Əməkdaşları və könüllülər tənha, kimsəsiz şəxslərə daha çox baş çəkməli, onlara tənha olmadıqlarını hiss etdirməlidirlər.

**✍ Namiq MƏMMƏDOV,**
**mərkəzin əməkdaşı.**

# 2017-ci ilin birinci yarısında Qəbələ rayonunun sosial-iqtisadi inkişafı haqqında məlumat

**(Əvvəli 6-cı səhifədə).**

**İstehlak bazarı**

2017-ci ilin birinci yarısında rayonun istehlak bazarında əhaliyə 18690 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 83539 min manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 17,5 faiz və ya 12437 min manat çoxdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi isə 5.8 faiz və ya 4859 min manat təşkil etmişdir.

**Əmək haqqı və məşğulluq**

2017-ci ilin ötən dövründə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 281 manat təşkil etmiş və 2016-ci ilin həmin dövrünə nisbətən 1,1 faiz artmışdır.

Bu dövrdə məşğul əhalinin sayı 56849 nəfər olmuşdur. Onların 11297 nəfəri muzdla işləyənlərdir.

Məşğul əhalinin 80.1 faizi və ya 45536 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 38250 nəfəri və yaxud 84,0 faizi kəndli-fermer təsərrüfatlarında, 4,6 faizi yaxud 2095 nəfəri fiziki şəxs qismində, yerdə qalan 5191 nəfəri və ya 11,4 faizi isə digər sahələrdə çalışanlardır.

2003-cü ilin oktyabr ayının 1-dən 2017-ci ilin iyul ayının 1-dək rayonda 16263 yeni iş yeri açılmışdır ki, onun da 14464 daimi iş yerləridir.

**Əhalinin sosial müdafiəsi**

2017-ci ilin 01 iyul vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsində 11690 pensiya işi üzrə 11968 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur ki, onların 7910 nəfərinə yaşa görə, 2990 nəfərinə əlilliyə görə, 790 ailə üzrə 1068 nəfərə isə ailə başçısını itirməsinə görə pensiya təyin olunmuşdur. Pensiyaçılara təyin olunmuş aylıq ümumi pensiyanın məbləği 2016.2 min manat, 1 pensiya işi üzrə orta aylıq pensiya məbləği 172.48 manat təşkil etmişdir.

Rayonda 4331 ailənin 4672 üzvünə 2002.7 min manat sosial müavinət, 672 ailənin 3118 üzvünə 792.5 min manat ünvanlı sosial yardım ödənilmişdir.

**✍ Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**